**Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Respublika ərazisində yay vaxtının tətbiq edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 1997-ci ildən başlayaraq hər il mart ayının son bazar günü saat 4.00-da əqrəblərin bir saat qabağa çəkilməsi ilə Azərbaycan Respublikası ərazisində yay vaxtına keçilsin.

2. Hər il oktyabr ayının son bazar günü saat 5.00-da əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilsin.

3. Qərarın həyata keçirilməsinə nəzarət Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə tapşırılsın. i[1]

4. Bu qərarın məzmunu barədə Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının İcraçı Katibliyinə və MDB ölkələrinin müvafiq təşkilatlarına məlumat verilsin.

**Azərbaycan Respublikasının Baş Naziri A.RASİ-ZADƏ**

Bakı şəhəri, 17 mart 1997-ci il
№ 21

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193)**
2. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

i[1] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193)** ilə 3-cü bəndində "**Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzinə**" sözləri "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinə**" sözləri ilə əvəz edilmişdir.

21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)** ilə 3-cü bəndində "**Agentliyinə**" sözü "**Komitəsinə**" sözü ilə əvəz edilmişdir.